# Azərbaycan Dövlət Aqrar Universiteti və AMEA-nın Genetik Ehtiyatlar İnstitutu arasında əməkdaşlıq müqaviləsi

Zəngin və şərəfli yol keçmiş Azərbaycan Dövlət Aqrar Universitetində son illərdə bir sıra qabaqcıl təhsil ocaqları ilə ikitərəfli əməkdaşlıq müqavilələri imzalanmışdır. Türkiyə, Almaniya, Norveç, Rusiya, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Hollandiya, ABŞ, Fransa, Belçika, Ukrayna və digər ölkələrin aqraryönümlü ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edilir. Universitetin alimləri dünyanın nüfuzlu ali təhsil müəssisələrinə gedir, mötəbər elmi məclislərdə uğurla çıxış edirlər. Ötən gün Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Azərbaycan Milli Elmlər Akademiyasının Genetik Ehtiyatlar İnstitutu ilə əməkdaşlıq müqaviləsi imzalanıb. Müqavilədə kadr hazırlığı və elmi-tədqiqat sahəsində əməkdaşlıq məqsədilə Genetik Ehtiyatlar İnstitutunun nəzdində Azərbaycan Dövlət Aqrar Universitetinin "Baza kafedrası"nın yaradılması nəzərdə tutulub. Kafedranın məqsədi ADAU-da tədris prosesinin elmi tədqiqatlarla əlaqələndirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi, tələbə və magistrantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktik bilik, bacarıq və vərdişlərin formalaşdırılması, "Genetika", "Biotexnologiya", "Virusologiya", "Seleksiya və toxumçuluq", "Tərəvəzçilik" və "Meyvəçilik" elmləri sahəsində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə cəlb edilməsi, birgə elmi tədqiqatların aparılması, Universitet və İnstitut arasında elmi-tədqiqat və kadr hazırlığı sahəsində əməkdaşlığın yaradılması və inkişaf etdirilməsindən ibarətdir.



Mərasimi giriş sözü ilə açan ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov tədbir iştirakçılarını və qonaqları salamlayaraq Azərbaycanda təhsil sistemində gedən uğurlardan, möhtəşəm layihələrin icrasından, universitetin nailiyyətlərindən və prespektivlərindən ətraflı söhbət açdı.

AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov çıxış edərək, institutun əsas elmi istiqamətlərindən, fəaliyyətindən və əldə olunduğu nəticələrdən geniş söhbət açdı. Müqaviləni ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov və AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov imzaladılar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**